# ZİYALININ DÜNYA BORCU



İnsan həyatının dünya borcu... Bu borc özünə qədər yaşanmış həyatdan öyrəndiyin təcrübəni, biliyi, təbiətinə yığdığın yaxşı nə varsa, hamısını özündən sonrakı nəsilə ötürməkdir. Əslində, elə həyatın davamlılığı da bu ötürücülük missiyasından çox asılıdır. Şəddad Cəfərov kimi müdrik bir insanın həyatı boyu qazandığı mənəvi sərvətlər qapalı bir kitab kimi öz varlığında qalsa idi, onda cəmiyyətdə varislik əlaqəsi qırılar, yeni gələn nəsillər isə həyatın gətirdiyi çətinliklər qarşısında gücsüz olardı.

Mənəvi sərvətlərin zənginləşməsi yolu da elə özünə qədərkilərin əsasında davam edir. Bir anlığa düşünsək ki, mənəvi sərvətlər xəzinəmizdə folklor, dildən-dilə keçən ağız ədəbiyyatı yoxdur. Onda heç Nizami də yarana bilməzdi. Nizaminin olmadığı mühitdə isə sonrakı zamanlarda böyük ədəbiyyatın da özülü boş görünərdi. Füzuli "Ürək dostu" ("Ənisül qəlb") qəsidəsini özündən əvvəlki böyük sənətkarların əsərlərinin davamı kimi qələmə alıb. O öz qəsidəsində Xaqani Şirvaninin, Əmir Xosrov Dəhləvinin... adlarını çəkir. Özünün yaratdığı əsərin də böyük sənət sarayında bir sütun olduğunu bildirir. Sözümüzün canı odur ki, müdriklər, söz-sənət bahadırları həyatı daha yaşarı etmək, dünyanın gözəlliyinə, insanların sevgi nəzərlərini yönəltməyi özlərinə borc biliblər. Bizim ədəbi qəhrəmanımız Şəddad müəllim də özünün müəllimlik missiyasını, öyrədicilik borcunu bütün həyatı boyu yerinə yetirməyə çalışıb. İstər istehsalatda, istərsə də, ayrı-ayrı universitetlərin mühazirə salonlarında bilgisini yeni nəsildən əsirgəməyib. İstehsalatda onun əsas ömür yolu istesalatla bağlı olduğundan poliqrafiya işinin bütün sirrlərini və incəliklərini bu sahəyə gələn gənclərə aşılamağa çalışırdı. Kimsəyə sirr deyil ki, keçmiş sovet dövründə elmin və istehsalatın bir çox sahələri imperiyanın mərkəzi ilə bağlı olduğundan elə mərkəzdən də idarə olunurdu. İmperiyaya sərbəst düşünən, nəzəri fikirləri ilə təşəbbür göstərən hazırlıqlı mütəxəsislərdən çox stereotip - şablon düşüncə adamları lazım idi ki, verilən göstərişləri müəyyən plan əsasında mexaniki olaraq icra etsinlər. Amma Şəddad Cəfərov yaxşı bilirdi ki, Azərbaycanın poliqrafiya sənayesini heç olmasa, imperiyanın əldə etdiyi naliyyətlər səviyyəsinə qaldırmaq, heç olmasa ittifaq dərəcəsinə yüksəltmək üçün Azərbaycanın paytaxtında həmin hazırlığa praktik və elmi, nəzəri cəhətdən cavab verə biləcək mütəxxəsislər gərəkdir. Ona görə də özündən asılı olmadan belə tez-tez dəyişdiyi müxtəlif təyinatlı poliqrafiya sahələrində birinci növbədə bacarıqlı gəncləri irəli çəkir, onlara sahənin sirrlərini öyrədirdi. Bəzən olurdu ki, ona geri qalmış, bərbad vəziyyətə düşmüş mətbəələrin işi də tapşırılırdı. Vəziyyəti öyrənib təhlil edəndə məlum olurdu ki, sahədə müvafiq mütəxəssis kadrları çatışmır. Baxmayaraq ki, işçilərin bir çoxu uzun müddətli iş stajına malikdir. Demək, işçilər müəyyən nəzəri və təcrübi biliklərə malik olmadığları üçün, konkret tapşırıqları yerinə yetiriblər. Bu səbəbdən də onlarda təşəbbüskarlıq, müstəqil düşünmə və fəaliyyət imkanı məhdud olub. Rəhbərliy etdiyi sahədə müəyyən təhsil bazasına malik olan işçilərə əlavə kurslar təşkil edir, onları sahənin fəaliyyətində müstəqil çalışma üçün hazırlayırdı. Bəzən də olurdu ki, belə gənclərdən seçib ittifaqın qabaqcıl poliqrafiya müəssisələrinə təcrübə qazanmaq üçün ezam edirdi. Bütün bunlar ona imkan verirdi ki, xüsusi model olaraq çevik iş prosesi qursun. İş prosesində isə onun səmərələşdirici təklifləri təkcə işi yüngülləşdirmirdi, həm də işçilərin elmi cəhətdən silahlandırılmasına da yardımçı olurdu. Beləliklə, qısa müddət ərzində geri qalan bir sahə sürətli və ahəngdar işləyən mexanizim təsiri bağışlayır, plan və tapşırıqlar yerinə yetirilirdi. Sözsüz ki, bu da işçilərin əmək haqqına, dolanışığına yaxşı təsir göstərir. Ayrı-ayrı poliqrafiya sahəsindəki adamlar onun yanında işləməyə can atırdılar. Düşünmək olar ki, bunun əsas səbəbi Şəddad Cəfərovun insanlarda özünə inamyaratma tələqinindən ibarətdir. Şəddad Cəfərov söhbətlərində deyir: "Mən bilirəm ki, hər bir insanın daxili mənəvi mühitində yaradıcı bir güc var. O yaradıcı gücü hərəkətə gətirmək vacib şərtdir. İnsan inananda ki, özünün daxili imkanlarını tam üzə çıxara bilər, onda onun maddi təminatı da yaxşı olacaq. Üstəlik işi, fəaliyyəti də təqdir ediləcəkdir. İnsan binayi qədimdən belə bir təbiətə malikdir. Gördüyü işdən xüsusi maraq umur. Gərək bu marağı ona təmin edəsən. Biz bəzən deyirik ki: filankəs fədakar işçidir... əgər onun marağı təmin olunmursa, işi təqdim edilmirsə, xüsusi fərqli keyfiyyətləri üzə çıxarılıb reallaşmırsa, onda necə fədakar ola bilər. Hər bir insanın inam motivini duyma, onu həmin motivdən qidalandırmaq çox vacibdir. Bütün bunlar nəzərə alınanda və insanın işlədilməmiş enerjisi fəaliyyətə cəlb olunanda o, ruhən qanadlanır, ilhamlanır...biz daha çox ilhamı mənəvi yaradıcılığa aid olan əlamət kimi xarakterizə edirik. Amma əslində bu əlamət insanın bütün fəaliyyət sahələrində özünü göstərə bilər". Şəddad Cəfərovun bu düşüncələri sanki bir həyat kitabıdır. Həqiqətən çoxlarımız ilhamı incəsənət, ədəbiyyat sahəsində çalışanların fəaliyyət əlaməti hesab edirik. Amma Şəddad Cəfərov ilhamı həmdə istehsalat sahəsinin aparıcılarında da fəaliyyət əlaməti kimi xarakterizə edir. Mən istehsalatda Şəddad Cəfərovu dəfələrlə müşahidə etmişəm. Hər hansı bir işçiyə tapşırıq verəndə, yaxud bir çoxları üçün ağır hesab olunan bir problemi müzakirə edəndə adamların necə həvəslə təkliflər verdiyini, çətini necə asan eləmək üçün təşəbbüs göstərdiklərinin də şahidi olmuşam, görmüşəm ki, insanlar hətta bəzən onun vaxtı ilə tətbiq etdiyi bir üsulu işçilər özləri yada salır. Məsələn, filan vaxt iş prosesində yaranmış gərgin vəziyyəti onun özünün hansı təklifi ilə aradan qaldırdıqlarını da diqqətə çəkirlər. Bu zaman onun üzündən xoşbəxtlik çalarlı bir təbəssüm keçir. Buna baxmayaraq özünü ələ alır, hətta təklif verəni təbiətinə xoş olsun deyə "Bu heç mənim ağlıma gəlmir, nə yaxşı yada saldın" deyir. Bütün bunlar onun həyatı boyu qazandığı üstün keyfiyyətlərdir. Bəzən biz bu keyfiyyətləri ya görə bilmirik, ya da o qədər də dəyəri olmayan cizgilər kimi xarakterizə edirik. Unuduruq ki, bizim əhəmiyyət vermədiyimiz bu cizgilər mürəkkəb insan mexanizmini hərəkətə gətirən sadə və sadə olduğu qədər də çox dəyərli üsul və vasitələrdir.



Şəddad Cəfərov təbiət etibarı ilə yaradıcı adam olduğu üçün istehsalat həyatındakı təcrübəni nəzəri cəhətdən ümumiləşdirməyi də bacarır. Elmlə istehsalatın, nəzəriyyə ilə təcrübənin vəhdətini yarada bildiyi üçün onun əhatəsi xüsusi ahənrüba mühiti yaradır. Adamlar onunla görüşməyə can atırlar, müsahib olmağa çalışırlar, söhbətlərini dinləmək istəyirlər. Çoxlarına elə gəlir ki, Şəddad Cəfərov təbiət etibarı ilə qaraqabaq adamdır, onu danışdırmaq çətindir, ancaq insan mənəviyyatının dərinliklərindən gələn və hansısa bir qaranlığı işıqlığa çıxarmaq istəyən sualın dəyərini o yaxşı görür. Və bu zaman onun daxili aləmi açıq kitaba çevrilir. Məsələni izah edir, asta-asta təmkinlə danışır. Çalışır ki, düşüncələri tam aydın olsun. Hətta müsahibinin vermədiyi sualı belə nitqində xatırladır və özü də cavablandırmaqda davam edir. Bəsit insan, savaddan kasad adam, izahlar və şərhlər zamanı dərinliyə gedə bilməz, Şəddad Cəfərov isə uzun illərin qabaqlanmış vaxt imkanlarında papağını günə havayı yandırmadığı üçün tükənməyən sərvət sahibidir. Ona görə də danışdıqları bir-birini təkrar eləmir. Getdikcə daha yeni misallar, həyati hadisələr, hətta yeri gələndə yumorlu əhvalatlar ona özünü ifadə imkanları yaradır. Bir dəfə keçmiş iş yoldaşlarından biri ilə söhbətinin şahidi oldum. Həmin şəxs uzun müddət poliqrafiyada işləsə də elə piyada olaraq qalmışdı. Bunu onun primitiv cavablarından da duyurdum. Və Şəddad Cəfərovun bir atmacası indi də yadımda qalıb: "Günün altında çox durma" həmin şəxs təəccüblə baxdı və soruşdu: "Niyə ki, indi payızdı axı elə də gün yoxdu".

"Bilirəm indi payızdı, nəinki payızda elə qışda da tənbəl adamın papağını gün yandırar". Bu yumorun alt qatında hansı mənaların dayandığını təsəvvür etmək elə də çətin deyil.

Şəddad Cəfərov bir insan həyatının dünyaya olan borcunu yaxşı dərk edir. Və ömrü boyu bu borcu verməyə çalışıb. Yazıçı Sevda Əlibəylinin onun haqqında qısa bir priçası var: "Deyirlər, insan oğlunun həyatda dörd vəzifəsi var: övlad böyütmək, ev tikmək, ağac əkmək və kitab yazmaq. Birinci üç vəzifəni çoxları yerinə yetirsə də, sonuncunu gerçəkləşdirmək yalnız nadir adamlara qismət olur. Şəddad müəllim dörd övlad böyüdüb, indi nəvələrinə himayədarlıq edir. Ev tikib-təkcə özünün yox, yüzlərlə ailəni isti ocaqla sevindirib.Ağac əkib-bu ağacların sayı hesaba, bağbağçasının miqyası ölçüyə gəlməzdir.O ki, qaldı kitab yazmaq - kitablara onun qədər imza atan ikinci, üçüncü şəxsimiz varmı?!Bu mənada Şəddad Cəfərov öz insanlıq vəzifəsini ləyaqətlə yerinə yetirib.60 yaşının tamamında Şəddad Cəfərova 70,80,90 yaşlarında (yüzə də Allah kərimdir) görüşənədək deyib ayrılmışdım.Vədimin birinci bəndinə əməl etdim, Yetmişdə görüşdük. Onun yaşantılarının cüzi bir hissəsini qələmə aldım. Yubiley yaxınlaşdığı üçün kitabı bitirdim. Ömür isə bitməsin. Mənalı, ləyaqətli ömürlər ən azı yüzü haqlasın. Ömründə bir tükənməzlik olan bu insanın neçə-neçə yüz illəri aşandan sonra da kəşf olunacağına, araşdırılacağına şübhəm yoxdur."(Sevda Əlibəyli "İlk poliqrafçı alim", "Gənclik" - 2020, səh.202). Müəllif yaxşı xarakterizə edir. Dediklərinin də hamısı doğrudur. Çünki Şəddad Cəfərov yaxşı atadır. Burada mütləq deməliyik ki, atanın yaxşılığı övladın tərbiyəsində üzə çıxır. Əgər övlad cəmiyyət üçün layiqli insan, vətən üçün gərəkli vətəndaş kimi böyüdülübsə, onda atanın zəhməti itməyib. Sevda Əlibəyli ev tikməkdən də danışır. Düşünmək olar ki, Şəddad Cəfərovun dünya borcu sırasında ev tikmək missiyasıda başa varıb. Onun ailəni təmin edən evi var. Ancaq, bununla kifayətlənmək olmaz. Çünki, Şəddad Cəfərovun ürəklərdə qurduğu evlərin sayı yoxdur. O, bu gün təkcə Azərbaycanda yox, Rusiyada, Ukranyada, İranda, Türkiyədə, Almaniyada yaşayan dostlarının ürəklərində qurduğu evləri ilə fəxr edə bilər.

Şəddad Cəfərov zəhmətkeş adamdır. Yaxşı bağı var. Qonaqpərvərliklə öz bağında dostları ilə görüşləri bu gün də davam edir. Onu insanlar sevirlər. Yaradıcı adamların bu görüş adamları şeirlərə, hekayələrə çevrilir. Şəddad Cəfərovun ədəbiyyatdakı möhtəşəm obrazını yaradır.

Və bir də kitab yazmaq. Şəddad Cəfərov dəyərli bədii, elmi kitabların müəllifidir. Və bu barədə ayrıca danışmaq daha yaxşı olardı. İnsanın dünya borcu... Hər kəs bu borcu verə bilirmi?

**22.06.2020**